ədalət.- 2021.- 17 iyun.- S.6.

# S. Vurğun yaradıcılığında vətən təbiətinin tərənnümü

**Sevimli xalq şairimiz S. Vurğun Azərbaycan təbiətini, Azərbaycan torpağını, bu torpağın füsunkar gözəlliklərini sanki əməkçi insanların arzu və istəkləri, amal və düşüncələri ilə paralel nəzmə çəkmişdir.**

Şair istər canlı, istərsə də cansız təbiətdən yazsın, fərqi yoxdur. O, hər yerdə, hər şeydə insanı, onun yaradıcı isti nəfəsini, yenilməz qürurunu duyur, insanla təbiətin doğma ünsiyyətinə poetik çələng hörür. "İlk bahar və mən", "Təbiət ilhama çağırır məni", "Samur çayı", "Səadət nəğməsi" və s. şair şeirlərində" S. Vurğun belə bir fikri təsdiqləyir ki, təbiət insan üçün gözəllik və təmizlik məbədi, ucalıq və ülviyyət taxtı, eşq və ilham mənbəyidir. Ancaq insan təbiətə həmişə hazır nemətlər anbarı kimi baxmır, onu estetik ideyasına uyğun daha yeni xallar və ilmələrlə, daha yeni naxışlar və bəzəklərlə süsləyir, gözəlliklərini nizamlayır, ona əsl vətəndaş qayğısı, əsl övlad məhəbbəti bəsləyir. İnsanın təbiətə məhz bu yaradıcı münasibətindən, təbiətə övlad qayğısı və məhəbbətindən "Səslənir vətənin çölü, çəməni", "Muğana su gəlir, Milə su gəlir", "Sünbüllər dirçəlib qalxır ayağa", "Boz təpələr çiçəklənir, atlas geyir yamaclar", "Səhralar al-əlvan gülə bürünüb" və s.

S. Vurğunun təbiət şeirlərində sıra dağların dik vüqarını, gen dərələrin gözlənilməz dərinliyini, ceyran və maralların, qırqovul və turacların, təsvirəgəlməz gözəlliyini, bülbül və torağayların könül açan xoş nəğməsini dərindən-dərinə hiss edir, pambığı faraş gələn qoca Muğandan, Şərqin qapısında mayak kimi zaman qızıl Bakıdan, göylərə baş çəkən Göyəzən dağından iftixarla keçir, dan yerinin sökülməsinə, güneylər döşündə əriyən qara, dəni saralan sünbüllərə heyranlıqla tamaşa edirik. Bütün bu təbiət lövhələri ruhumuza bir sərinlik, saflıq, bakirəlik yayır, bizi təbiətin özü qədər nəcibləşdirir.

Şairin böyük məhəbbətlə tərənnüm etdiyi təbii-coğrafi obyektlərdən biri dağlardır. S. Vurğun bu mövzuda dörd şeir yazıb. "Bizim dağların" qoşmasında şair həm dağların əzəmət və gözəlliyini, həm də çeşmələr başından əskik olmayan zurnabalabanı, "dişləri göynədən soyuq bulağı", boynunu əyib çeşmələrdən su içən maralı", qoyun-quzunun bir-birinə qarışmasını", "qulplu qazanlardan qatıqların daşmasını" öz əlamətləri ilə təsvir edir. S. Vurğun dağlıq ərazinin, oradakı qaynar iqtisadi həyatın bütün incəliklərini dərindən müşahidə etdiyindən şeir dağ çayları kimi axıcı, bulaqların gözü qədər şəffaf və durudur.

Dağlar gəraylısında şair öz sazını və sözünün qüdrətini dağlardan aldığı söləyir. Şeiri oxuduqca özümüzü dağların qoynunda hiss edir və biz də şairlə birlikdə dağlarda asta-asta gəzən maralları görmədikdə darıxır, dözümsüz olur, yazda dolayları doyunca gəzməyi arzulayır, güneyləri bir də görmək istəyirik.

*Bir qonağam bu dünyada,*
*Bir gün ömüm gedər bada,*



*Vurğunu da salar yada*
*Düz ilqarlı bizim dağlar.*

Bu bənddə "dağlar" ifadəsi artıq coğrafi məkan, coğrafi obyekt mənasını itirmiş, vətən, xalq anlamı kəsb etmişdir. "Dağlar" ifadəsini əşyavilikdən uzaqlaşdıran, ona vətən məzmunu kəsb etdirən isə insana xas olan keyfiyyətin (düz ilqar) şair tərəfindən "Dağlar" üzərinə köçürülməsidir.

"Fərhad və Şirin" pyesində S. Vurğun Azər babanın dili ilə deyir:

*Sən torpaqdan yapış,*
*burdadır qüvvət,*
*Göylərdə gördüyün zövq*
*o sənət*
*İnsan xəyalının sonsuz*
*yoludur,*
*İnsansa torpağın, suyun*
*oğludur.*

Oxucularda əməksevərlik tərbiyəsinin aşılanmasında bu misraların tərbiyəvi əhəmiyyəti böyükdür,

Vətənimizin füsunkar təbii gözəlliklərinin, tükənməznemətlərinin bədii təqdimi, misralarındakı ahəng rəvanlığı və fikir ardıcıllığı ilə ürəkləri fəth edən "Azərbaycan" şeiri poeziyamızın çox qiymətli incilərindən sayılır. Mahnıya çevrilərək böyükdən kiçiyə hamının dillər əzbəri olan bu bahar ətirli şeirdə Azərbaycan torpağının, elimizin poetik obrazını yaradan S. Vurğun əsas ideyanı - xalqa məhəbbəti, vətənpərvərliyi, xalqın yaradıcı əməyinə hörmət və ehtiramı böyük vətəndaşlıq qüruru ilə tərənnüm etmişdir. Onun lirik qəhramanı mahnını qəlbinin tellərində çalır, birər-birər misralar öz rəvan ahəngdarlığı, fikir aşkarlığı ilə dinləyicini sehirləyir, könülləri isidir...

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan!*
*Azərbaycan, Azərbaycan!*

S. Vurğun poeziyasındakı bu yüksək sənətkarlıq, həyatın tələblərinəcavab verən ideyalılıq mənəvi dəyərlərimizdən qüvvə alıb qanadlanan şüurun məhsulu idi. "Azərbaycan şeiri" doğma yurd, ulu torpaq haqqında poetik simfoniyadır. Doğma respublikamızın böyüklüyü və əzəməti, əsrarəngiz təbiəti bu qiymətli əsərdə çox böyük sənətkarlıqla bədii ifadəsini tapmışdır:

*Sıra dağlar, gen dərələr,*
*Ürək açan mənzərələr.*
*Ceyran qaçar, cüyür mələr,*
*Nə çoxdur oylağın sənin,*
*Aranın, yaylağın sənin!*

Sanki şeirin "xəmiri" musiqidən yoğrulmuşdur. O qədər oynaq o qədər dərin mənalı, təsir qüvvəsi qat-qat yüksəkdir, istər-istəməz şeir şagirdlər, tələbələr tərəfindən tez əzbərlənir və uzun illər yaddan çıxmır.

*Keç bu dağdan, bu arandan*
*Astaradan, Lənkərandan*
*Afrikadan, Hindistandan*
*Qonaq gəlir bizə quşlar-*
*Zülm əlindən qurtulmuşlar.*

Şeirdə xalq ruhu hakimdir, xalqın əsrlər boyu cilalaya-cilalaya gətirdiyi, poetikləşdirdiyi büllur sözlər bulaq kimi çağlayıb oxucunu ovsunlayır. Adi sözlərlə S. Vurğun təbiət təsvirlərinə ictimai məna verir.

S. Vurğun "Muğan" poemasında Azərbaycanı dərin bir məhəbbətlə tərənnüm etmiş, onun təbii zənginliklərindən böyük zövq almışdır!

*Yenə də yam-yaşıl geyinib dağlar,*
*Göz kimi durulur qaynar bulaqlar.*
*Əriyib güneylər döşüdəki qar,*
*Yağış da isladır o göy çəməni,-*
*Təbiət ilhama çağırır məni...*

Bu misralarla şair təbii sərvətlərdən istifadə etməklə yer üzünün əşrəfi olan insanlar üçün təbiətin paklığının nə qədər ülvi olduğunu göstərir. Torpağın alt və üst qatındakı xəzinələri aşkara çıxarıb xalqın xidmətinə verilməsindən ürək dolusu söz açan S. Vurğun deyir;

*Hər kolun dibinə diqqətlə baxsan,*
*Bir yaşıl süfrə var,*
*duy o nəməti...*

S. Vurğun təbiət vurğunu olduğundan daim onun qoynunda olmağa can atır. Azərbaycanın təbiətinə, ceyranlı, cüyürlü düzlərinə vurğunluğunu böyük məhəbbətlə tərənnüm edir. "Ceyran" şeiri poetik biçimə görə hissləri riqqətə gətirən bir lövhədir. O, qulaqda xoş bir mahnı, həzin melodiya kimi səslənir, öz lirik incəliyi ilə oxucunun qəlbini oxşayır.

*Yerdən ayağını quş kimi üzüb,*
*Yay kimi dartınıb, ox kimi süzüb,*
*Yenə öz sürünü nizama düzüb,*
*Baş alıb gedirsən hayana, ceyran?*

- deyən şair çiçəkli düzlərimizin bu yaraşıqlı gözəlini coşqun bir ilhamla tərənnüm edir. Azərbaycanın əsrarəngiz təbiətini odlu qəlblə sevən şair aşağıdakı misraları bütün yaradıcılığı boyu özünə sanki epiqraf seçmişdir.

*Şair, bu yerləri yaxından tanı,*
*Təbiət quranda Azərbaycanı*
*Onu sığallamış qüdrətin əli,*
*Bir böyük ürəkli qüvvətin əli.*

**Bəli illər ötdükcə təbiət və gözəllik vurğunu olan S. Vurğun hər an qarşımızda sanki xitabət kürsüsündə dayanmışdır; geniş sinəsini gərərək vüqarlı başını düz tutmuşdur: köks dolusu nəfəs alıb yenə aramla, böyük dəryada ağır bir gəmini dalğalar üzərində yada salan bir təmkinlə şeir deyir, bizi gözəlliyə təbiət vurğunu olamağa, onu sevməyə, qorumağa çağırır.**

**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi,**
**AYB-nin üzvi, "Gülüstan" elmi-ədəbi məclisinin sədri**